# MŞ-də Əməkdar jurnalistin yubiley mərasimi

**Dünən Azərbaycan Mətbuat Şurasında "Ədalət" qəzetinin baş redaktor müavini, şair-publisist, Əməkdar jurnalist Əbülfət Mədətoğlunun 65 illik yubileyi qeyd edilib.**




AMŞ sədri Rəşad Məcid təcrübəli jurnalistin çoxillik yaradıcılıq yoluna nəzər salaraq bildirib ki, 1980-ci ildə "Təşviqatçı" jurnalında fəaliyyətə başlayan Əbülfət Mədətoğlu sonrakı illərdə "Araz", "Qarabağ", "Azərbaycan ordusu" qəzetlərində çalışıb. 1992-ci ildən "Ədalət" qəzetinin baş redaktor müavinidir. O, peşəkar jurnalist fəaliyyəti ilə yanaşı, davamlı bədii yaradıcılıqla da məşğul olub, dəyərli poeziya və nəsr nümunələri yaradıb. Həmkarımız nüfuzlu yaradıcılıq mükafatlarına layiq görülüb.

Rəşad Məcib çoxillik səmərəli jurnalist fəaliyyəti və 65 illik yubileyi münasibətilə Əbülfət Mədətoğluya AMŞ-nin Xatirə diplomunu təqdim edib.

Mərasimdə çıxış edən Milli Məclisin deputatı, "Ədalət" qəzetinin təsisçisi Aqil Abbas, AMŞ İdarə Heyətinin üzvü, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Rəhimoğlu, Qarabağ qazisi, ehtiyatda olan polkovnik Mirqiyas Seyidsoylu, şairə Kəmalə Abıyeva, yazıçı-publisist Ramiz Göyüş, jurnalist Vəsimə İsmayılqızı və başqaları yubilyarı səmimi qəlbdən təbrik edib, ona yeni uğurlar arzulayıblar.

Sonda Əbülfət Mədətoğlu yaradıcılığına verilən yüksək dəyərə və xoş sözlərə görə iştirakçılara təşəkkürünü bildirib.

**T.RÜSTƏMLİ**
**XQ**